***Nihad Hüseynov****

# NƏYƏ GÖRƏ KOSMOS MÜQAVİLƏSİNİN 2-Cİ MADDƏSİ YENİDƏN NƏZƏRDƏN KEÇİRİLMƏLİDİR?

***Annotasiya***
*Dünyanın təbii ehtiyatlarının limitli olması və dünyada əhalinin çoxalması dünya xaricindəki ethiyatlara olan ehtiyacı qaçılmaz edir. Baxmayaraq ki, bütün dünyada kosmos mədənçiliyi təşəbbüsləri getdikcə çoxalır, hazırki kosmos hüququ bu fəaliyyət üçün effektiv hüquqi tənzimləmə təklif etmir. Xüsusilə, "Kosmos" müqaviləsinin II maddəsində nəzərdə tutulan mənimsəməmə prinsipi kosmos mədənçiliyi ilə bağlı hüquqi qeyri-müəyyənliklər yaradır. Bu məqalə II maddənin qeyri-müəyyən xarakterinin kosmosun təbii ehtiyatlarının çıxarılmasının və istifadəsinin qanuniliyinə necə təsir etdiyini göstərməyə çalışır. Eyni zamanda, kosmos hüququnun 1950-ci illərdən bəri necə təkamül etdiyi göstərilir. Məqalədə kosmos mədənçiliyinin önəmi və bu sahədəki təşəbbüslər də müzakirə olunur.*

***Abstract***
*The finite character of natural resources of the earth and growth of human population makes the need for resources outside the earth inevitable. Although space mining ventures is getting increased all over the world current space law does not offer effective legal regulation for this human activity. In particular, non-appropriation principle enshrined in the article II of the "Outer Space Treaty" creates legal uncertainties with regard to space mining. This article seeks to show how vague character of article II affects the legality of the extraction and use of natural resources of the outer space. At the same time it is showed that how space law evolved since the 1950s. The importance of space mining and new ventures in this area are also discussed.*

## MÜNDƏRİCAT

Giriş ..................................................... 94
I. Kosmos Hüququnun Anlayışı ..................................................... 96
A. Kosmos hüququ nədir? ..................................................... 96
B. Kosmos hüququnun tarixi inkişafı ..................................................... 96
II. Kosmos Mədənçiliyi ..................................................... 99
A. Kosmos mədənçiliyi nəyə görə lazımdır? ..................................................... 99
B. Kosmos mədənçiliyi təşəbbüsləri ..................................................... 100
III. Kosmos Müqaviləsinin II Maddəsi ..................................................... 102

* Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, III kurs, SABAH qrupları tələbəsi.

IV. Mümkün Problemlərin Həlli ........................................................................105
Nəticə ......................................................................................................................106

## Giriş

Kosmos fəaliyyətlərinin böyük önəm qazandığı bir dövrdə kosmos hüququnun bu fəaliyyətlər üçün aydın bir hüquqi çərçivə yaratmaması bu sahədə bir çox hüquqi qeyri-müəyyənliklərə yol açır. Bu qeyri-müəyyənliklərin başlıca səbəbi isə kosmos hüququnun mənbələri sayılan və dövlətlərin kosmosun tədqiqində və istifadəsində fəaliyyətlərini tənzimləyən beynəlxalq müqavilələrin tamamilə fərqli siyasi mühitdə və kompleks şəkildə bağlanması ilə əlaqəlidir. Sözügedən müqavilələr bağlandığı zaman kosmos fəaliyyətlərinin iştirakçıları başda ABŞ və SSRİ olmaqla dövlətlər idilərsə, 1980-ci illərdən bu vəziyyət dəyişməyə başladı. Belə ki, məhz bu tarixdən kosmosun kommersiya xarakterli məqsədlər üçün istifadəsi gündəmə gəldi və qeyri-hökumət müəssisələri kosmos fəaliyyətlərinin əsas iştirakçılarına çevrilməyə başladılar. Dünyanın enerji ehtiyatlarının artan əhali sayına kifayət etməməsi və yeni xammal mənbələrinə ehtiyac yaranması dünyanın diqqətini kosmosa, xüsusilə aya və enerji ehtiyatlarının bol olduğu asteroidlərə yönəltdi.

Bu cür ehtiyacların mövcudluğuna baxmayaraq, kosmos hüququ kosmosda mədənçilik fəaliyyəti üçün aydın hüquqi çərçivə yaratmır. 1967-ci ildə qəbul olunan və kosmos hüququnun əsas mənbəyi sayılan "Kosmik Fəzanın Tədqiqində və İstifadəsində Dövlətlərin Fəaliyyət Prinsipləri haqqında" müqavilə (bundan sonra "Kosmos müqaviləsi") kosmos mədənçiliyi ilə bağlı mübahisələr yaradan bir çox maddəni özündə ehtiva edir. Belə ki, müqavilənin 2-ci maddəsinə görə, Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəza onlar üzərində suverenlik elan etmək, istifadə, işğal və ya hər hansı digər vasitələrlə milli mənimsəmə predmeti ola bilməz.[1] Qeyd etdiyimiz kimi, "Kosmos" müqaviləsi tamamilə fərqli bir siyasi mühitdə bağlanmışdı və həmin dövrdə dövlətlərin əsas məqsədi bir-birlərini kosmosda yeni ərazilər əldə etməkdən çəkindirməkdən ibarət idi.

Məqsəd nə olursa olsun II maddə kosmos mədənçiliyinin hüquqi statusu ilə bağlı bir neçə sualı ehtiva edir. Bunlardan ən önəmliləri kosmosun təbii ehtiyatlarının istifadəsinin mənimsəmə qadağasını pozub-pozmaması və həmin maddənin qeyri-hökumət müəssisələrinə aid edilib-edilməməsi ilə bağlıdır. Bu məqalədə kosmos hüququnun anlayışına və tarixi inkişafına aydınlıq gətirilir, kosmos mədənçiliyinin anlayışı, nə üçün önəmli olduğu və bu sahədəki son illərdəki təşəbbüslər araşdırılır, "Kosmos" müqaviləsinin II

[1] Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri haqqında Müqavilə mad. 2, 27 Yanv. 1967, 610 BMTMS 8843.

maddəsinin kosmos mədənçiliyi baxımından yaratdığı problemlər, müəlliflər arasındakı fikir ayrılıqları təhlil olunur və kosmos mədənçiliyinin tənzimlənməsi üçün yeni beynəlxalq müqaviləyə ehtiyac olduğu qeyd olunur. Müqavilədə dövlətlərin və qeyri-hökumət müəssisələrinin mədənçiliklə məşğul olmaq hüququnun tanınmalı olması və onların fəaliyyətini tənzimləyən beynəlxalq təşkilatın yaradılmasının önəmi vurğulanır.

# I. Kosmos Hüququnun Anlayışı

## A. Kosmos hüququ nədir?

Kosmos hüququnu pozitiv hüquq çərçivəsində düşündükdə, nəzərə çarpan ilk xüsus, normalarının ümumi olaraq beynəlxalq müqavilələrə əsaslanmasıdır.[2] Buna görə mövcud halı ilə kosmos hüququ əsas olaraq beynəlxalq hüquq normalarına görə idarə olunur və onun bir alt sahəsidir.[3] Yəni, kosmos hüququ bir çox hüquq sahəsinin əksinə olaraq beynəlxalq hüquq çərçivəsində yaranmış, inkişaf etmiş, daha sonra milli qanunvericiliklərə daxil edilmişdir. Bəs kosmos hüququ beynəlxalq hüquq daxilində necə bir yer tutur? Ən geniş mənada kosmos hüququ, kosmik fəzanı, həmçinin kosmik fəzada olan və ya onunla bağlı fəaliyyətləri tənzimləyə biləcək və ya onlara tətbiq oluna biləcək bütün hüququ əhatə edir.[4]

"Kosmos hüququ" kosmosun hüququdur və müəyyən kosmik uçuşla bağlı sığorta müqaviləsinin şərtlərindən, dövlətlərin kosmik fəzada davranışını tənzimləyən prinsiplərə qədər dəyişə bilər.[5] Kosmos hüququ "yeni hüquq"dur. Son 140 ildə baş verən texnoloji inkişaf, hüquqdan bu yeniliklərə cavab verməyi tələb etmişdir.[6] Qeyd edildiyi kimi, hüquq heç vaxt texnologiyanı tənzimləməyə çalışmır, daha ziyadə, texnologiyadan yaranan, rəqabətdə olan insan maraqlarını nizama salmağı hədəfləyir.[7] Kosmos hüququ da kosmik fəzanın istifadəsi və tədqiqi ilə bağlı praktiki problemləri həll etmək üçün inkişaf etmişdir.[8]

## B. Kosmos hüququnun tarixi inkişafı

İnsan ağlı, elm və elmi fantaziyanın ilkin nümunələri öz diqqətlərini kosmosa yönəldəndə bu sahə üçün hüquqi ölçü yox idi.[9] Yeni

---

[2] Reşat Volkan Günel, Uluslararası Hukuk Açısından Uzay Madenciliği 5-6 (2016).

[3] Yenə orada.

[4] Francis Lyall & Paul B. Larsen, Space Law: A Treatise 2 (2009).

[5] Yenə orada.

[6] Yenə orada.

[7] Michel Bourbonniere, *National-Security Law In Outer Space: The Interface Of Exploration And Security*, 70 J. Air l. & Com. 3, 3 (2005).

[8] Lyall & Larsen, yuxarıda istinad 4.

[9] Frans von der Dunk & Fabio Tronchetti, Handbook of Space Law 1 (2015).

texnologiyaların ortaya çıxması, xüsusilə, roket texnologiyasının nəzəri başlanğıclarından II Dünya müharibəsi ərzində müharibə aləti kimi ilkin istifadəsinə qədər olan inkişafı ilə birlikdə, bu cür yeni insan fəaliyyətinin mümkün hüquqi aspektləri bu sahədə hüquqi düşüncəni stimullaşdırmağa başladı.[10] Kosmos hüququ sahəsində ilk monoqrafiyanın müəllifi olan Vladimir Mandl 1932-ci ildə Almaniyada çap olunan əsərində qeyd edirdi ki, roketlər vasitəsilə kosmosa çatmaq hava hüququ ilə tənzimlənməyən müxtəlif yeni problemlər yaradacaq və buna görə yeni hüquq sahəsinin yaradılmasına ehtiyac var.[11] Vladimir Mandl dəniz və hava hüququndakı bir çox konsepsiyadan kosmosda aşkar oluna biləcək problemlərə analogiya vasitəsilə istifadə etməkdə istəkli olsa da, o, kosmos hüququnu bu sahələrdən ayrı və fərqli bir şey kimi təsəvvür edirdi.[12] Nəhayət, bu cür yeni beynəlxalq hüquq sahəsinin yaradılmasına doğru ən güclü impuls geosiyasi düşüncələrdən, yəni kosmosda həmin dönəmin iki supergücü – ABŞ və SSRİ arasında yeni rəqabət, bəlkə də, qarşıdurma sahəsinin yaranması ilə gəldi.[13] 1957-ci ilin oktyabr ayında SSRİ-nin ilk dəfə bir süni peyki – *Sputnik 1*-i kosmosa göndərməsi artıq bu yarışın başlanmasının elanı idi. Ancaq bu iki güc kosmosa nüvə silahlarının və digər dağıdıcı təsirə malik silahların yerləşdirilməsi kimi bir siyasət izləməyərək, tamamilə başqa cür yarışa üstünlük verdi: kosmosa ilk insanın göndərilməsi, ilk dəfə aya gedilməsi və s. Sputniklə başlayan, insan tərəfindən hazırlanmış ilk obyektlərin kosmosa uçması daha əvvəl akademik dünya tərəfindən tələb olunan hüquqi prinsiplərin inkişaf etdirilməsinə təcili ehtiyac yaratdı.[14]

Bundan sonra kosmos hüququnun tarixi inkişafı 4 mərhələdə açıqlana bilər:[15]

1950-ci illərin sonlarından 1960-cı illərin ortalarına qədər davam edən *birinci dövr*, "hazırlıq" dövrü olaraq adlandırıla bilər.[16] Bu zaman zərfində kosmosdakı fəaliyyətlərin idarə olunması ilə bağlı hüquqi çərçivənin təməlləri atılmışdır.[17] Bu xüsusda ən önəmli hadisə kimi 13 dekabr 1963-cü ildə BMT Baş Məclisi tərəfindən qəbul olunan "Dövlətlərin Kosmosun Tədqiqində və İstifadəsində Fəaliyyətlərini Tənzimləyən Prinsiplərin Bəyannaməsi haqqında" qərarı göstərmək olar.[18] Bu qərarda kosmos hüququnun əsas prinsipləri təsbit olunmuş və qərar gələcək beynəlxalq

---

[10] Yenə orada.
[11] Vladimir Mandl, Das Weltraum-Recht: Ein Problem der Raumfahrt 48 (1932)
[12] Lyall & Larsen, yuxarıda istinad 4, 6.
[13] Dunk & Tronchetti, yuxarıda istinad 9, 2.
[14] Yenə orada, 4.
[15] Reşat Volkan Günel, yuxarıda istinad 2, 8.
[16] Yenə orada.
[17] Yenə orada.
[18] Bax: http://www.unoosa.org/oosa/en/ourwork/spacelaw/treaties/travaux-preparatoires/declaration-of-legal-principles.html (Son baxış tarixi: 26 Noyabr 2017-ci il).

müqavilələr üçün bir növ təməl rolunu oynamışdır. Burada nəzərdə tutulan bir çox prinsiplər 1967-ci il Kosmos Müqaviləsində də öz əksini tapmışdır.

1960-cı illərin sonlarından 1980-ci illərin əvvəllərinə qədər olan dövrü əhatə edən *ikinci dövr* isə "hüquqi tənzimetmə dövrü" olaraq adlandırıla bilər.[19] Kosmos hüququnun tarixi inkişafı ərzində ən önəmli dövr hesab edə biləcəyimiz bu dövr ərzində BMT nəzdində müasir kosmos hüququnun əsas mənbələri sayılan 5 beynəlxalq müqavilə qəbul olunmuşdur. Bunlardan birincisi və ən önəmlisi olan "Kosmos" müqaviləsi 10 Oktyabr 1967-ci ildə, "Xilasetmə" müqaviləsi 3 Dekabr 1968-ci ildə, "Məsuliyyət" müqaviləsi 1 Sentyabr 1972-ci ildə, "Qeydiyyat" müqaviləsi 15 Sentyabr 1976-cı ildə, ən son "Ay" müqaviləsi isə 11 İyul 1984-cü ildə qüvvəyə minmişdir.[20] "Kosmos" müqaviləsi, kosmos fəaliyyətləri ilə bağlı ən önəmli mövzuları ələ alan təməl prinsipləri müəyyən edərkən, digər 4 müqavilə isə "Kosmos" müqaviləsi çərçivəsində tənzim olunmuş, lakin daha xüsusi xarakterli mövzulara fokuslanmışdır.[21]

1980-ci illərin əvvəllərindən 1990-cı illərin ortasına qədər davam edən *üçüncü dövr* isə "bağlayıcı olmayan hüquq" dövrü olaraq adlandırıla bilər.[22] Bu dövrün əsas xüsusiyyəti BMT Baş Məclisi tərəfindən kosmosa dair bəzi xüsusi məsələləri tənzimləyən, bağlayıcı olmayan 4 prinsipin qəbul olunması oldu.[23]

*Dördüncü dövr* isə 1990-cı illərin sonlarından 2010-cu illərə qədər davam etmişdir. Bu dövr mövcud hüquqi rejimin dəyərləndirilməsi və kosmosla bağlı müqavilələrdə müəyyən olunan hüquqlar və öhdəliklər əsasında bağlayıcı olmayan sənədlərin hazırlanması ilə xarakterizə olunmaqdadır.[24] Xüsusilə, BMT Kosmik Fəzanın Sülh Məqsədləri ilə İstifadəsi üzrə Komitənin Hüquq Alt Komitəsi kosmosa dair müqavilələrin daha geniş miqyasda qəbul edilməsini təmin etmək və bunların tətbiq olunmasını dəyərləndirmək məqsədilə işlər aparmaqdadır.[25]

İçində olduğumuz və *beşinci döv*r olaraq adlandıra biləcəyimiz mərhələ isə xüsusi təşəbbüslərin kosmos fəaliyyətlərinə daxil olması ilə birlikdə milli hüquq vasitəsilə mövcud kosmos hüququnun aşılmağa çalışıldığı dəyişiklik

---

[19] Reşat Volkan Günel, yuxarıda istinad 2, 8.
[20] Bax: http://www.unoosa.org/oosa/en/ourwork/spacelaw/treaties.html_(Son baxış tarixi: 26 Noyabr 2017-ci il).
[21] Reşat Volkan Günel, yuxarıda istinad 2, 8.
[22] Yenə orada, 9.
[23] Həmin prinsiplərin məqalənin mövzusu ilə bağlı xüsusi əhəmiyyəti olmadığından, burada tək-tək qeyd etməyi lazım bilmədik.
[24] Reşat Volkan Günel, yuxarıda istinad 2, 9.
[25] Yenə orada.

dövrü olaraq qeyd edilə bilər.[26] Bu dövr milli kosmos tənzimləmələrinin ön plana çıxdığı bir dövr olaraq davam etməkdədir.[27]

# II. Kosmos Mədənçiliyi

Dünyada mövcud olan təbii ehtiyatların sürətli bir şəkildə tükənməsi dünya xaricində olan ehtiyatların istifadə olunmasını qaçınılmaz edir. Elm adamlarının araşdırmaları dünya xaricindəki göy cisimlərində də olduqca yüksək dəyərdə və bol miqdarda mədənin mövcud olduğunu bildirməkdədir.[28] Bu xüsusda kosmosda mədənçilik fəaliyyəti dünya xaricində qalan və kosmos olaraq təsvir olunan sahədə xüsusilə də göy cisimlərində mövcud olan təbii ehtiyatların kommersiya məqsədli işlədilməsi mənasına gəlir.[29] Kosmos mədənçiliyi üçün bütün texniki və iqtisadi faktorları nəzərə almaqla, bu fəaliyyətlə məşğul olmaq üçün şirkətlər Yaxın Dünya Asteroidləri adlanan asteroidlərdə mədənçiliklə məşğul olmağı hədəfləyirlər. Avropa Kosmos Agentliyinə görə, təxminən bilinən 10.000 asteroid Yaxın Dünya Asteroidləridir.[30]

## A. Kosmos mədənçiliyi nəyə görə lazımdır?

Asteroid mədənçiliyi üçün əsas motivasiya yeni və gəlirli kosmos sənayesini ticariləşdirmək, dünyada daha çox resursa olan tələbatı qarşılamaq və dünya xaricində resurslar axtarmaqla dünyanın ətraf-mühitinin qorunmasına kömək etməkdən ibarətdir.[31] XXI əsrdə dünya əhalisinin sayının 10-12 milyarda çatacağını nəzərə alsaq, bu səviyyədə təbii ehtiyatlara olan tələbat, iqlim dəyişikliyi, qida və enerji ehtiyatları ilə bağlı problemlər yaranacaqdır.[32]

Kosmos mədənçiliyinin həyata keçirilməsi üçün səbəblərdən biri də davamlı enerji mənbələrinə keçidlə bağlıdır.[33] XXI əsr enerji sistemləri qalıq yanacaqlarından təmizlənəcək və günəş, külək, geotermal, hidroelekrik, qabarma və çəkilmə və nüvə birləşmə əsaslı enerji sistemlərinə davamlı keçid olacaqdır.[34] Bu keçidi reallaşdırarkən, enerji təchizatlarını mərkəzsizləşdirmək üçün olan cəhdlər şəhər cəmiyyətinin davamlılığına və qalıcılığına kömək edə bilər.[35] Kosmos mədənçiliyi üçün göstərilən səbəblərdən biri də iqlim dəyişikliyinin stabilləşdirilməsi ilə bağlıdır.[36] İqlim dəyişikliyinin yalnız insanlığı təhdid etmədiyi, eyni zamanda geniş

[26] Yenə orada, 10.
[27] Yenə orada.
[28] Yenə orada, 110.
[29] Yenə orada.
[30] Bax: https://www.space.com/51-asteroids-formation-discovery-and-exploration.html (Son baxış tarixi: 14 Noyabr 2017-ci il).
[31] The 2010 Space Studies Program of the International Space University, Final Report on the Asteroid mining Technologies Roadmap and Applications 1 (2010).
[32] Ram S. Jakhu, Joseph N. Pelton & Yaw O.M. Nyampong, Space Mining And Its Regulation 11 (2017).
[33] Yenə orada, 12.
[34] Yenə orada.
[35] Yenə orada.
[36] Yenə orada.

həcmli bitki və heyvan həyatının qorunması ilə bağlı olduğu nəzərə alınarsa gələcək onilliklərdə kosmos əsaslı həll yollarına ehtiyac yarana bilər.[37]

## B. Kosmos mədənçiliyi təşəbbüsləri

### *1. Amerika Birləşmiş Ştatları*

ABŞ-da "yeni kosmos" sənayesinin son 15 ildəki inkişafı özəl və ictimai olaraq maliyyələşdirilən kosmos proqramlarının müvafiq rollarını yenidən müəyyən etmişdir.[38] Eyni zamanda, ABŞ-da özəl kosmos fəaliyyətlərinin geniş vüsət aldığı və təşəbbüskarların növbəti onillik ərzində kosmos mədənçiliyini həyata keçirmək məqsədilə yeni təşəbbüslər irəli sürdüyü[39] bir dövr yaşanır. Yeni təşəbbüskarlar özəl sektorun yeni kosmos təşəbbüslərində əsas rol oynayacağına inanır və bu sahədə hökumətin məhdud rolunu müdafiə edirlər.[40]

24 aprel 2012-ci ildə *Planetary Resources* özəl kosmos fəaliyyətinə daxil olan və birbaşa olaraq kosmosun təbii ehtiyatları məsələsi ilə məşğul olan ilk özəl müəssisə oldu.[41] Asteroid kəmərində mədənçiliklə məşğul olmağı hədəfləyən şirkətlərin başında gələn Planetary Resources şirkəti dünyanın ən varlı gənc nəsil investorları tərəfində maliyyələşdirilir.[42] Şirkət Yaxın Dünya Asteroidlərinin aydan daha çatımlı olmasına, kosmosun tədqiqini sürətləndirəcək, kosmosda həyatı davam etdirə biləcək təbii ehtiyatlara malik olmasına görə məhz bu asteroidlərdə mədənçilik fəaliyyəti ilə məşğul olmağı hədəfləyir.[43] Təxminlərə görə, Yaxın Dünya Asteroidlərində insan həyatını davam etdirmək və kosmik gəmilərə yanacaq kimi istifadə etmək üçün istifadə oluna biləcək su miqdarı 2 trilyon tondur.[44] Planetary Resources şirkətin ilk tədqiqat missiyası üçün su ilə zəngin asteroidləri seçmişdir.[45]

22 yanvar 2013-cü ildə ikinci ABŞ əsaslı şirkət olan *Deep Space Industries* asteroid tədqiqatı və ehtiyatların çıxarılması yarışına daxil oldu.[46] Deep Space Industries öz fəaliyyətini mədənlərin axtarılması ilə başlayan, ehtiyatların yığılması ilə davam edən, daha sonra emal və nəhayət istehsalla başa çatan 4 pilləli inkişaf kimi təsvir edir.[47] Şirkətin iddiasına görə, onun kosmik gəmiləri tarixdə ilk dəfə olaraq asteroid mədənçiliyini iqtisadi baxımdan mümkün edir.[48] *Prospector-X* Deep Space Industries və Lüksemburq hökuməti arasındakı ortaqlığın ilk missiyasıdır.[49] Onlar birlikdə asteroidlərdə mədənçiliklə məşğul olmaq və kosmosun dəyərli ehtiyatlarının təchizat xarakterli zəncirini yaratmaq üçün ehtiyac olan texnologiyanın inkişaf

[37] Yenə orada.
[38] Yenə orada, 59.
[39] Yenə orada, 60.
[40] Yenə orada.
[41] Yenə orada, 64.
[42] Reşat Volkan Günel, yuxarıda istinad 2, 116.
[43] Bax: https://www.planetaryresources.com/why-asteroids/ (Son baxış tarixi: 7 Dekabr 2017-ci il).
[44] Yenə orada.
[45] Yenə orada.
[46] Jakhu, Pelton & Nyampong, yuxarıda istinad 32, 65-66.
[47] Yenə orada, 66.
[48] Bax: http://deepspaceindustries.com/missions/ (Son baxış tarixi: 7 Dekabr 2017-ci il).
[49] Bax: http://deepspaceindustries.com/prospector-x/ (Son baxış tarixi: 7 Dekabr 2017-ci il).

etdirilməsi üzərində çalışırlar.[50] Şirkət yaxın gələcəkdə hədəfin geotexniki ölçülərini və mədənçilik üçün uyğunluğunu dəyərləndirmək məqsədilə Yaxın Dünya Asteroidlərinə kiçik bir kosmik gəmi göndərməyi hədəfləyir.[51] Kosmos mədənçiliyini həyata keçirmək üçün güclü, çevik, yüksək performanslı və daha kiçik ölçülü peyk alt sistemləri şirkət tərəfindən hazırda inkişaf etdirilir.[52] Dünyanın ilk kommersiya xarakterli planetlərarası mədənçilik missiyası olan *Prospector-1* asteroidin kosmos ehtiyatı olaraq dəyərini müəyyən etmək üçün Yaxın Dünya Asteroidinə göndəriləcək.[53] Prospector-1 qiymət və performans arasında ideal balans yaradan kiçik bir kosmik gəmidir.[54]

Bundan savayı, ABŞ-da kosmos mədənçiliyi və bu kimi fəaliyyətlərlə məşğul olmağı hədəfləyən *Shackleton Energy Company*, *Moon Express* və s. kimi şirkətlər fəaliyyət göstərirlər.

### 2. *Digər dövlətlər*

Rusiyada isə özəl şirkətlər və milli hökumət kosmosdan mineralların yığılması üçün ehtiyac olan texnologiyanın və proqramlaşdırmanın inkişafı yolunda təzəlikcə uzun addımlar atmış olsa da, xüsusilə kommersiya məqsədli olmaq üzərə, bunun reallaşması üçün hələ də uzun yol var.[55]

Avropada, Kanadada və digər qərb dövlətlərində də bu sahədə bir sıra fəaliyyətlər var.[56] Avropa Kosmos Agentliyi Venera, Mars, Merkuri, Ay, Yupiter və onun ayları və kosmosun dərinliklərini tədqiq etmək üçün aktiv olaraq kosmik araşdırma proqramı ilə məşğul olub.[57] Bu tədqiqat fəaliyyəti elmi əhatə dairəsinə görə ətraflı olub və fiziki, kimyəvi və ətraf-mühitlə bağlı ölçmələri ehtiva edib.[58] Müxtəlif missiyalar gələcəkdə hər hansı kosmos mədənçiliyi fəaliyyəti üçün faydalı ola biləcək məlumatlar təmin etmişdir.[59] Avropada kosmos mədənçiliyi fəaliyyəti baxımından ən çox diqqət çəkən dövlət Lüksemburqdur. 3 mart 2016-cı ildə Lüksemburq hökuməti ölkənin "kosmos ehtiyatlarının tədqiqində və istifadəsinə Avropa mərkəzi" olması kimi bir təşəbbüs elan etdi.[60] Bu təşəbbüs elanı ilə birlikdə Lüksemburq "özəl təşəbbüskarların çıxardıqları ehtiyatlarla bağlı hüquqlarından əmin olmalarını təmin edəcək hüquqi çərçivə formalaşdırmaq məqsədini elan edən" ilk Avropa dövləti oldu.[61]

Bundan başqa Çin, Hindistan, Yaponiya kimi Asiya ölkələrində də kosmos mədənçiliyi ilə bağlı ciddi fəaliyyətlər mövcuddur.[62]

---

[50] Yenə orada.
[51] Yenə orada.
[52] Yenə orada.
[53] Bax: http://deepspaceindustries.com/prospector-1/ (Son baxış tarixi: 7 Dekabr 2017-ci il)
[54] Yenə orada.
[55] Craig Foster, *Excuse Me, You're Mining My Asteroid: Space Property Rights And The U.S. Space Resource Exploration and Utilization Act Of 2015*, 2016 U. Ill. J.L. Tech. & Pol'y. 407, 416 (2016).
[56] Jakhu, Pelton & Nyampong, yuxarıda istinad 32, §8.
[57] Yenə orada, 92.
[58] Yenə orada.
[59] Yenə orada.
[60] Foster, yuxarıda istinad 55, 414.
[61] Yenə orada, 415.
[62] Jakhu, Pelton & Nyampong, yuxarıda istinad 32, §9.

## III. Kosmos Müqaviləsinin II Maddəsi

"Kosmos" müqaviləsi özündə kosmos mədənçiliyinin hüquqi aspektinə təsir göstərə biləcək bir neçə müddəa ehtiva etsə də, bunlardan ən önəmlisi "Kosmos" müqaviləsinin II maddəsidir. "Kosmos" müqaviləsinin qəbul olunmasından 2 il sonra, yəni 1969-cu ildə Stephen Gorove yazırdı ki, bu müddəaya səthi baxış zamanı belə əgər insanlığın kosmosu kəşfi hüquq və nizam çərçivəsində və minimum çəkişmə ilə baş tutacaqsa, həll olunmalı olan bir neçə fundamental sualı ehtiva etdiyi görünür.[63] Bu maddə özlüyündə kosmos hüququ ilə bağlı bir çox hüquqi qeyri-müəyyənliyə yol açsa da, o, kosmos mədənçiliyi ilə bağlı 2 təməl sualı ortaya qoyur: II maddənin müddəaları qeyri-hökumət müəssisələrinə aid edilirmi və kosmosun təbii ehtiyatlarının çıxarılması və istifadəsi mənimsəmə qadağasının pozulmasıdırmı?

### 1. II maddənin müddəaları qeyri-hökumət müəssisələrinə aid edilirmi?

Bu sualın əsas məqsədi əgər kosmosun təbii ehtiyatlarının çıxarılması və istifadəsi mənimsəmə əmələ gətirirsə, qeyri-hökumət müəssisələrinin də bu cür fəaliyyətinin II maddəni pozub-pozmayacağını müəyyən etməkdir. Hazırda kosmos mədənçiliyi ilə bağlı əsas təşəbbüslər özəl şirkətlər tərəfindən ortaya qoyulduğundan bu maddənin müddəalarının özəl şirkətlərə və ya qeyri-hökumət müəssisələrinə aid edilib-edilmədiyini araşdırmaq lazımdır. Təəssüf ki, kosmos hüququnda bu sualın dəqiq bir cavabı yoxdur. Eyni zamanda, kosmos hüququ ədəbiyyatında da müəlliflər arasında bu barədə fikir ayrılıqları mövcuddur. Kosmos hüququ ədəbiyyatında bir neçə müəllif II maddənin yalnız milli mənimsəməni qadağan etdiyini və xüsusi mənimsəməyə icazə verdiyini irəli sürür. Gorove-a görə "Kosmos" müqaviləsinin fərdi mənimsəmə ilə bağlı hər hansı qadağa ehtiva etdiyi görünmür.[64] Beləliklə, hər hansı fərd, xüsusi birlik və ya beynəlxalq təşkilat göy cisimləri də daxil olmaqla kosmosun hər hansı hissəsini qanuni olaraq mənimsəyə bilər.[65]

Ancaq bir çox müəllif "Kosmos" müqaviləsinin xüsusi mənimsəməni üstüörtülü olaraq qadağan etdiyini iddia edir.[66] Məsələn, Bin Cheng-ə görə, kosmos açıq dənizlər kimi heç bir dövlətə məxsus deyil və heç bir dövlət və ya onun vətəndaşı tərəfindən mənimsənə bilməz.[67] Bu fikir üçün ən önəmli səbəb "Kosmos" müqaviləsinin VI maddəsində öz əksini tapır. Belə ki, VI

[63] Stephen Gorove, *Interpreting Article II Of The Outer Space Treaty,* 37 Fordham L. Rev. 349, 349 (1969).

[64] Nicole Ng, *Fences In Outer Space: Recognising Property Rights In Celestial Bodies And Natural Resources*, 7 The Western Australian Jurist 143, 148 (2016).

[65] Yenə orada.

[66] Yenə orada.

[67] Bin Cheng, *The Commercial Development of Space: The Need for New Treaties*, 19 J. Space L. 17, 22 (1991)

maddəyə görə, dövlətlər, hökumət orqanları və ya qeyri-hökumət müəssisələri tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzadakı milli fəaliyyətlərinə görə beynəlxalq məsuliyyət daşıyırlar.[68] Eyni zamanda, həmin maddəyə görə Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzada qeyri-hökumət müəssisələrinin fəaliyyəti müvafiq müqavilə tərəfi olan dövlətin icazəsi və daimi nəzarəti altında həyata keçirilir.[69] Əgər dövlət 6-cı maddəyə əsasən qeyri-hökumət müəssisəsinin mənimsəməsinə icazə verərsə, həmin mənimsəmə "hər hansı digər bir yolla" 2-ci maddəni pozaraq milli mənimsəmə əmələ gətirər.[70] VI maddədə nəzərdə tutulan müddəaların məqsədi "Beynəlxalq Hüquqa Zidd Əməllərə Görə Dövlətlərin Məsuliyyəti haqqında" maddələrin 11-ci maddəsində nəzərdə tutulan qaydada qeyri-hökumət müəssisələrinin hərəkətlərinin dövlətlərə aid edilməsidir.[71]

### *2. II maddə kosmosun təbii ehtiyatlarının çıxarılması və istifadəsinə icazə verirmi?*

II maddənin kosmos mədənçiliyi baxımından yaratdığı ən önəmli problem kosmosun təbii ehtiyatlarının çıxarılması və istifadəsinin mənimsəmə qadağasını pozub-pozmaması ilə bağlıdır. Qeyd edildiyi kimi, mənimsəmə və resursların çıxarılması arasındakı əlaqə II maddə haqqında ədəbiyyatda olan mübahisənin əsas nöqtəsidir.[72] Kosmos hüququ ədəbiyyatındakı ümumi fikrə görə, II maddə "Kosmos" müqaviləsinin I maddəsi ilə birlikdə kosmik fəzanı *res communis* olaraq müəyyən edir. Müqavilə kosmosun sərbəst istifadəsi və tədqiqinə icazə versə də, onun üzərində hər hansı suverenlik tələbini qadağan edir. II maddə kosmosun istifadə və ya işğal yolu ilə mənimsənməsinə qadağa qoyur.[73] II maddənin bu dili milli mənimsəməyə predmet ola biləcək dünya ərazilərini kosmik fəzadan fərqləndirmək üçün seçilmişdir.[74]

Qeyd etdiyimiz kimi, kosmosun təbii ehtiyatlarının çıxarılması və istifadəsinin mənimsəməmə prinsipinə zidd olub-olmaması məsələsi barədə kosmos hüququ ədəbiyyatında vahid fikir yoxdur. Bəzi müəlliflər iddia edirlər ki, kosmik fəzada suverenlik tələbinə olan ümumi qadağa təbii ehtiyatların istifadə edilməsini də əhatə edir.[75] Məsələn, kosmos hüququ ədəbiyyatında önəmli müəlliflərdən sayılan Stephen Gorove qeyd edir ki, ""Kosmos" müqaviləsinin kosmos və onun təbii ehtiyatları arasında heç bir

[68] Yuxarıda istinad 1, mad. 6.
[69] Yenə orada.
[70] Ng, yuxarıda istinad 64, 148.
[71] P. J. Blount & Christian J. Robison, *One Small Step: The Impact Of The U.S. Commercial Space Launch Competitiveness Act Of 2015 On The Exploitation Of Resources In Outer Space*, 18 N.C. J.L. & Tech. 160, 167 (2016).
[72] Yenə orada, 168.
[73] Yenə orada, 164.
[74] Yenə orada.
[75] Yenə orada, 169.

fərq qoymamasına görə ... kosmos termini ehtiyatlar kimi başa düşülməlidir”.[76] Bundan əlavə, təbii ehtiyatların istifadəçinin müstəsna xeyiri üçün mənimsənilməsinin I maddəyə zidd olduğu görünür.[77]

Bunun əksinə, digər müəlliflər irəli sürürlər ki, kosmosun sərbəst tədqiqi və istifadəsi hüququ açıq dənizlər kimi digər *res communis* rejimlərin təməlində olan normalarla eynidir.[78] *Res communis* ümumi razılıq istisna olmaqla, hər hansı dövlətin suverenliyinə tabe ola bilməz və dövlətlərin digər dövlətlər və ya onların vətəndaşları tərəfindən açıq dənizlərin istifadə edilməsinə mənfi təsir göstərə biləcək hərəkətləri etməkdən çəkinmək öhdəliyi vardır.[79] Hazırda kosmosun və göy cisimlərinin eyni ümumi xarakterə malik olması əsas olaraq qəbul olunur.[80] Qısa olaraq, bu müəlliflər iddia edirlər ki, dövlətlərin, onların fəaliyyətləri ehtiyatların mənimsəndiyi ərazilərin daimi olaraq mənimsənməsini ehtiva etmədiyi və digərlərinin eyni fəaliyyətlə məşğul olmasını əngəlləmədiyi müddətcə kosmosun təbii ehtiyatlarını mənimsəməyə hüquqları vardır.[81]

Kosmos hüququ ədəbiyyatında bəzi müəlliflər isə iddia edirlər ki, II maddə ərazi konsepsiyasına tətbiq olunur, əmlak yox.[82] II maddə kosmosu dövlətlərin ərazisindən xaric tutmaq funksiyasını yerinə yetirir, ona görə də mənimsəmə yalnız əmlak hüquqlarının ərazi iddialarından əmələ gəldiyi zaman baş tutur.[83] Beynəlxalq hüquqda kosmos kimi ərazilər *res communis* olaraq bilinir və beynəlxalq sistem tərəfindən *global commons* olaraq tanınır.[84] *Global commons* termini milli dövlətlərin suveren nəzarətindən kənarda olan və ərazi suverenliyi iddiasına predmet olmayan əraziləri bildirmək üçün istifadə olunur.[85] *Global commons* termininin yalnız ümumi bir hüquqi məzmunu var və hər bir *global commons* beynəlxalq hüquq çərçivəsində tətbiq etdiyi, özünün daxili *lex specialis*-nə sahibdir. Buna görə də açıq dənizlər, dənizdibi rayonu, Antarktida və kosmos dövlətlər üçün bənzəri olmayan hüquqlar və öhdəliklər yaradan fərqli hüquqi rejimlərə malikdirlər.[86] Bunun üçün də hər bir *global commons* üçün dövlətlər beynəlxalq sülh və təhlükəsizlik və öz maraqları arasında uyğun balans olaraq gördükləri *lex specialis*-i qəbul

---

[76] Yenə orada.
[77] Yenə orada.
[78] Yenə orada, 170.
[79] Ian Brownlie, Principles of Public International Law, 169 (2008).
[80] Yenə orada.
[81] Blount & Robison, yuxarıda istinad 7, 170.
[82] Yenə orada.
[83] Yenə orada.
[84] Yenə orada, 170-171.
[85] Yenə orada, 171.
[86] Yenə orada.

etməkdə azaddırlar.[87] Bu nöqteyi nəzərdən, dövlətlər bu ərazilər daxilində milli yurisdiksiyanın mövcudluğuna icazə verə bilərlər.[88]

## IV. Mümkün Problemlərin Həlli

Kosmos mədənçiliyinin məqalədə qeyd olunan önəmini və reallığını nəzərə alsaq, bu fəaliyyət üçün effektiv hüquqi tənzimləmə şərtdir. Eyni zamanda, müasir beynəlxalq kosmos hüququnun da bu fəaliyyət üçün aydın hüquqi tənzimləmə təklif etmədiyi aşkardır. Artıq bir çox şirkətlərin və investorların diqqətini çəkən kosmos mədənçiliyinin gələcək inkişafı da məhz bu fəaliyyətin hüquqi vəziyyətindən asılı olacaqdır. Kosmos mədənçiliyi zamanı yarana biləcək hüquqi problemlər bu sahəyə olan marağı və sərmayəni də azaldacaqdır. Kosmos mədənçiliyinin isə insanlıq üçün yaratdığı yeni imkanları nəzərə alsaq, bu sahənin inkişafı olduqca vacibdir. Kosmos hüququ kosmos mədənçiliyinə təsir göstərə biləcək bir çox norma ehtiva etsə də, burada məqalənin mövzusundan dolayı yalnız II maddə ilə bağlı məsələlər üçün təkliflər veriləcəkdir.

Müasir beynəlxalq hüquqda ən effektiv tənzimləmənin beynəlxalq müqavilələr vasitəsilə həyata keçirildiyini nəzərə alsaq, kosmos mədənçiliyini tənzimləmək üçün də dövlətlər arasında yeni beynəlxalq müqavilənin bağlanması zəruridir. Müqavilədə kosmosun təbii ehtiyatlarının çıxarılması və istifadəsinin mənimsəmə prinsipinə zidd olmadığı qeyd olunaraq dövlətlərə və qeyri-hökumət müəssisələrinə kosmos mədənçiliyi ilə məşğul olmağa hüquqlar verilməlidir. Bu hüquqların reallaşdırılması üçün isə kosmosda mədənçilik fəaliyyəti ilə məşğul olmaq istəyən dövlətlərin və qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyən beynəlxalq təşkilatın yaradılması nəzərdə tutulmalıdır.

Kosmos mədənçiliyi ilə məşğul olmağı hədəfləyən dövlətlərə həmin beynəlxalq təşkilat tərəfindən icazə verilməli, təşkilat dövlətlərin bu sahədəki bütün fəaliyyətinə nəzarət etməli və dövlətlərin fəaliyyətinin beynəlxalq hüquqa uyğunluğunu təmin etməlidir. Kosmos mədənçiliyi ilə bağlı qeyri-hökumət müəssisələrinin fəaliyyəti üçün isə icazə yalnız müvafiq dövlət tərəfindən deyil, eyni zamanda kosmosda mədənçilik fəaliyyətini tənzimləyən beynəlxalq təşkilat tərəfindən verilməlidir. Bu müddəa eyni zamanda daimi nəzarət prinsipinə də aid edilməlidir. Belə ki, kosmosda mədənçiliklə məşğul olmağı hədəfləyən müəssisələrin fəaliyyətinə daimi nəzarət yalnızca müvafiq dövlət tərəfindən deyil, həmçinin beynəlxalq təşkilat tərəfindən də həyata keçirilməlidir.

Qeyd edildiyi kimi, dövlətlərin və qeyri-hökumət müəssisələrinin kosmosun təbii ehtiyatlarından istifadəsi hüququ açıqca qeyd olunmalı və onların bu hüquqları həyata keçirərkən bir-birləri arasında yarana biləcək

---

[87] Yenə orada.

[88] Yenə orada.

problemlərin həlli məhz kosmosda mədənçilik fəaliyyətini tənzimləyəcək olan beynəlxalq təşkilata həvalə olunmalıdır.

## Nəticə

Görüldüyü kimi, hazırda insanlığın gələcəyi baxımından mühüm əhəmiyyət kəsb edən kosmos mədənçiliyi ilə bağlı kosmos hüququnda problemlər mövcuddur. Bu problemlərdən biri də "Kosmos" müqaviləsinin II maddəsi ilə bağlıdır. II maddədə nəzərdə tutulan mənimsəməmə prinsipinin kosmos mədənçiliyini qadağan edib-etmədiyi və onun qeyri-hökumət müəssisələrinə aid edilib-edilmədiyi kosmos hüququ ədəbiyyatında ən çox müzakirə olunan məsələlərdir. Nəticə olaraq, bu problemi effektiv olaraq həll etmək üçün kosmos mədənçiliyini tənzimləyəcək yeni beynəlxalq müqavilə qəbul olunmalı, müqavilədə dövlətlərə və qeyri-hökumət müəssisələrinə kosmosun təbii ehtiyatlarından istifadə etməyə hüquq verilməli və kosmos mədənçiliyi ilə bağlı onların fəaliyyətini tənzimləyəcək beynəlxalq təşkilatın yaradılması nəzərdə tutulmalıdır.